www.525.az www.facebook.com/525.az/ www.instagram.com/525ciqezet/

# Beynəlxalq aləm: ziddiyyətlər, münaqişələr, müharibələr



*Telman ORUCOV*

(Əvvəli 20 mart sayımızda)

Ticarət müharibəsinə gəldikdə, bu, heç də arzuolunan hal deyildir və beynəlxalq kommersiyaya xəbər toxundurmamış qalmır. Bundan Çinə zərər dəysə də, uzaq gələcəkdə ABŞ-ın özünə və Qərbi Avropa dəvlətlərinə daha ağır ziyan vuracağı ehtimalı da böyükdür. Ticarət ta qədimdən dövlətlər üçün iqtsadi inkişafın lokomotivi rolunu oynamışdır. Karl Marks istehsalın əhəmiyyətinə üstünlük verirdi. Sonralar isə ticarət daha mühüm sahəyə çevrildi.

ABŞ prezidenti Donald Tramp 24 sentyabr 2019-cu ildə BMT Baş Məclisindəki çıxışında müdrik liderlərin daim öz xalqı və ölkəsi naminə işlədiyini qeyd etməklə, gələcəyin qlobalistlərə deyil, vətənpərvərlərə məxsus olacağını bəyan etmişdi. Trampın çağırışı qlobalizmin əleyhinə olmaqla, milli dövlətlərin möhkəmlənməsini nəzərdə tutur. Qloballaşma isə onların fəaliyyətini məhdudlaşmağa xidmət edir. Qloballaşmanın beşiyi olan ölkə indi onun əleyhinə yönələn çağırışlarla çıxış edir. Sahibin yolları heç də anlaşılan deyildir.

## Tarixə nikbin baxış

Amerikanın siyasət alimi Frensis Fukuyama 1992-ci ildə "tarixin sonunun" çatdığını elan etmişdi. Belə mülahizə üçün müəyyən əsaslar da var idi. Berlin Divarı uçurulmuşdu, Sovet İttifaqı süquta uğramışdı və Soyuq Müharibə artıq başa çatmışdı. Bu hadisələr belə qənaətə gəlməyə imkan verirdi ki, demokratiya dünyanın totalitarlıqdan azad olan digər hissəsinə də yayılacaq və iqtisadi və siyasi liberalizm yeganə istifadə olunan bir ideologiya kimi fərqindən asılı olmayaraq bütün dövlətlərə hakim kəsiləcəkdir. Fukuyamaya görə, bu, bəşəriyyətin sosio-mədəni təkamülündə sonuncu nöqtəyə çatmaq işarəsi idi. Qloballaşma beynəlxalq təhlükəsizlik üçün də yararlı olacaqdır. Lakin Fukuyamanın nikbinliyi alt-üst oldu, reallıq çox fərqli olan şeyləri meydana çıxartdı. 2001-ci ilin 11 sentyabrında terroristlərin Nyu-Yorkdakı Dünya Ticarət mərkəzinin iki binasına - nəhəng əkizlərə (amerikanlar onları "twin" - "əkiz" adlandırırdı) dəhşətli hücumundan sonra beynəlxalq mənzərəni dəyişdirən yeni era başlandı. Tarix heç də başa çatmadı, sona yetmədi, əslində, yeni sifətini göstərdi.

Fukuyamanı qınamaq da ədalətsizlik olardı. Çünki o, özünün yeni "Kimlik. Etiraf olunmağa cəhd və qəbul olunmamaq siyasəti" adlı kitabında göstərir ki, onu düzgün tərcümə etməmişlər. Bizim başa düşdüyümüz kimi, tarixin yox, tarixin məkanının sonunu nəzərdə tuturmuş.

İnqilablar arxivə verildikdən sonra bəşəriyyətin təkamül yolu ilə irəliləməsi güman edilirdi, çünki ideoloji qarşıdurma sıradan çıxmışdı. Mübarizə artıq resurslara sahib olmaq üstündə gedirdi. Yunan dilində historia (tarix) - "tədqiq etmək yolu ilə öyrənmək" mənasını verir. Əvvəllər nə baş verdiyini öyrənmək və gələcəkdə nə baş verəcəyini güman etmək üçün vacibdir. Böyük filosof və natiq Siseronun bu məsələ barədəki fikri də çox maraqlıdır: "Səndən əvvəl nə baş verdiyi barədə heç nə bilməmək, daim uşaq olmaq üçün doğulmaq deməkdir". Karl Marks isə deyirdi ki, "Tarix iki dəfə təkrar olunur, əvvəlcə faciə kimi, sonra isə fars kimi".

Ona görə də tarixi hökmən bilmək lazımdır ki, onun mənfi təcrübəsinin təkrarına yol verməyəsən. Tarix daim təfsir üçün, təhlil üçün açıqdır, o, həm də ziddiyyətli ola bilər.

İkinci Dünya müharibəsi ərzində natsistlər onların ideologiyasına uyğun gəlməyən minlərlə sənət əsərlərini və kitabları məhv və ya müsadirə etdilər. Hitler özündən əvvəlkilərin neqativ hərəkətlərini təkrar etmişdi. İlk Çin imperatoru Tsin Şi Xuan-di b.e.ə. III əsrin sonunda xoşuna gəlməyən filosofların, o cümlədən, Konfutsinin əsərlərini yandırmaq əmrini vermişdi. Lakin o, Konfutsi irsini bütünlüklə məhv edə bilmədi. Yuli Sezar b.e.ə. 48-ci ildə Aleksandriyada olarkan ordusuna yaranan təhlükəni ləğv etmək üçün şəhərdə yangın törətdikdə, alov məşhur kitabxanaya da çatmış və böyük miqdarda papirusda yazılmış əsərlər məhv edilmişdi. 640-cı ildə Misiri işğal edən xəlifə Ömər də Aleksandriya kitabxanasını yandırtmışdı, belə qəribə əsas gətirmişdi ki, əgər orada olan kitablarda Quranda olanlar vardırsa, onlar yandırılmalıdır, onlarda Quranda olmayanlar vardırsa, yenə də yandırılmalıdır. Kitabları yandıranlar heç də sadə Herostratlar olmamışdılar, biri Çində ilk dəfə mərkəzləşdirilmiş dövlət yaratmış, digəri Qədim Roma sərkərdəsi kimi Qalliyanı işğal etmiş, ilk dəfə Böyük Britaniyaya ayaq basmışdı. İkinci ərəb xəlifəsi də xilafətin ərazisini xeyli böyütmüşdü. Təəssüf ki, onlar öz istedadlarını və qabiliyyətlərini elmi bilikləri konservasiya edən kitablara, bilərəkdən və bilməyərəkdən nadanlıq münasibəti göstərmişdilər.

Bədbəxtlikdən, tarixi irsə, mədəniyyətə qəddar münasibət halları indi də baş verir. İslamçı qruplar Əfqanıstan ərazisində Bamyandakı buddist abidəsini-Buddanın heykəlini partlatmışdılar, səbəb də ondan ibarət idi ki, bu abidə İslama yaddır. Yaxud İslam Dövləti naminə vuruşanlar Suriyanın Palmira şəhərindəki qədim abidələri məhv etmişdilər. Onların isə minilliklərdən ibarət yaşı var idi. Palmira abidələri tarixi və memarlıq nöqteyi-nəzərindən olduqca qiymətli idi və bəşəriyyətin malik olduğu mədəni irs hesab olunurdu. XXI əsrdə belə vandalizm nümunələri təəccüb və qəzəb doğurmaya bilməz. İslamçılar Palmira abidələrini xaraba qoymaqla ilkin xristianların IV əsrdə Romanın bütpərəst abidələrini dağıtmaq təcrübəsini təkrar edirdilər. Qatı islamçılar bütpərəst abidələrinə münasibətdə özlərindən min il yarım əvvəl yaşamış xristianları təqlid edirdilər, dağıtmaqda, viran qoymaqda müasir İslam, ilkin xristianlıqla vəhdətdə çıxış edirdi. Belə həmrəylik yalnız nifrət hissləri aşılaya bilər.

Heç şübhə yoxdur ki, tarixi hadisələr geosiyasətə danılmaz təsir göstərir. Dünyanın siyasi xəritəsi heç də yarım əsr bundan əvvəl olduğu kimi deyildir. Coğrafi məkanlar dəyişmir, lakin həmin məkanların içərisində dövlətlər doğulur, böyüyür və yoxa çıxır.

SSRİ və Balkanlarda nüfuzlu dövlət sayılan Yuqoslaviya sıradan çıxmaqla, tarix səhnəsini tərk etdilər. Müxtəlif millətlər uzun müddət vahid dövlətdə birləşməyə çalışırdı. Lakin sonralar çoxmillətli dövlətlər tərkibindəki etnik dəyişikliklərə görə arxada qalmış tarixi nailiyyətləri tərk etdilər və yeni millətlərin siyasi cəhətdən formalaşmasına yol açdılar.

Tarix, səhvlərindən öyrənməkdə insanlara kömək edir, baxmayaraq ki, çox vaxt onlar təkrar olunur və yeni nəsillər zamanın eyni daşının üzəri ilə təkrarən addımlayırlar. Konflikt məkanları ərazisindən ötüb-keçmək, arealları və digər geosiyasi məkanları ələ keçirmək və onlara nəzarət əldə etmək məqsədini güdür.

Təhlükəyə məruz qalan ölkələrdən biri Əfqanıstandır. XIX əsrin ortalarında Britaniya bu dağlıq ölkəyə nəzarəti ələ keçirmək istədi ki, Rusiyanın özünün Hindistandakı müstəmləkə sərhədlərinə tərəf irəliləməsini dayandırsın. Bu, uğursuz kampaniya idi, əfqanlar işğala müqavimət göstərdilər və ingilisləri ölkədən qovdular. Bir əsr sonra Sovet İttifaqı həmin ölkə üzərində nəzarəti əldə etməyə can atdı. Lakin bu müdaxilə edənlər də məğlub edildilər. 2001-ci ildə Nyu-Yorka Dünya Ticarət Mərkəzinə hücumlara görə burada terrora qarşı mübarizə adı altında başlanan müharibə sonralar uğursuzluğa düçar oldu və Əfqanıstan yenidən özünü "məğlubedilməz" ölkə kimi göstərdi.

Məğlubedilməzlik nöqteyi-nəzərindən Rusiya da yaxşı bir nümunədir, heç də təsadüfi deyildir ki, qonşu xalq olan çinlilər rusiyalıları daim "döyüşkən xalq" adlandırmışlar. Tarix də onların bu rəyini bütünlüklə təsdiq edir. 1812-ci ildə Napoleon çar I Aleksandra qarşı kampaniyaya başladı və biabırçı şəkildə məğlub oldu. Onun tərifli Grand Army-si - Böyük Ordusu məhv edildi, ondan kiçik bir qəlpə qaldı. Bir əsr sonra, 1941-ci ildə Hitler Sovet ərazisini işğal etmək istədi və məğlub oldu, öz ölkəsi müttəfiqlərin, birinci növbədə Sovetlərin işğalına məruz qaldı. Hitler öz həmvətənlisi Klauzevitsin Rusiyanı məğlub etməyin mümkün olmadığı barədəki xəbərdarlığına da məhəl qoymadı. Hər iki lider nisbətən asan qələbələrdən ruhlanıb, iti düşüncə tərzini itirdi, onlar düşmənin gücünü və qabiliyyətini anlamalı idi və Rusiyaya məxsus olan sərt qış təhlükəsi faktoru da onları uğursuzluğa uğratmağa kömək etdi. Fransızların məğlubiyyətində "general Qış" və "general Şaxta" amilləri nə qədər şişirdilsə də, onların mövcudluğuna və təsir qüvvəsinə şübhə edilməsi də düzgün deyildir. Rus qışı həqiqətən də əsl iti xəncərə bənzəyir. Hələ 1707-ci ildə isveçlilər "rus qışının" şaxtaları ucbatından tamamilə məğlub olmuşdular. Fransa və Almaniyanın hər iki lideri isə Rusiyaya müdaxilə etmək qərarına gəldikdə bu ölkənin sərt iqlimini və nəhəng ölçülərdəki əraziyə malik olduğunu nəzərə almamaqla mühüm səhvə yol vermişdilər.

Napoleon və Hitler öz avantüralarına hazırlaşarkən tarixə müraciət etsəydilər, bu fəlakətlərdən qaça bilərdilər. Bu dəfələrlə təsdiqini tapmış və nəzərə alınmalı bir amildir ki, hansısa xalqla müharibəyə başlamamışdan əvvəl onun tarixini bilmək vacibdir.

Böyük Britaniyanın məşhur dövlət xadimi, XIX əsrin ortalarında xarici işlər naziri və baş nazir olmuş lord Palmerstonun "İngiltərənin daimi müttəfiqi və daimi düşməni yoxdur, İngiltərənin daimi maraqları vardır" sözləri müasir dövlət xadimlərinin siyasət prinsipinə çevrilmişdir. Başlanğıcda Birləşmiş Ştatlar qloballaşma şüarını irəli sürsə də, daim öz mənafelərini güdməkdə davam etmiş, başqalarının maraqlarına elə bir hörmətlə yanaşmamışdı. Trampın aludə olduğu və tez-tez əl atdığı sanksiyalar çobanın əlindəki çomaq təsirini bağışlayır. 2019-cu ilin 2 oktyabrında Avropa dövlətlərindən idxal olunan qida məhsullarına da 10-25 faiz həcmində yeni tariflər, gömrük rüsumları qoymuşdur və bunların həmin dövlətlərə 1,6 milyard dollar ziyan vuracağı gözlənilir. Axı Tramp seçki kampaniyasında "Amerikanı yenidən böyük etmək" şüarını irəli sürmüşdü, guya ki, ABŞ ondan əvvəl kiçildilmişdi. ABŞ siyasəti daim və indi də xüsusi olaraq öz maraqlarını güdməyə yönəlmişdir. Məgər Rusiya başqalarının mənafeyi naminə öz maraqlarını qurban verirmi və ya özünün iqtisadi ziyanını kiməsə güzəştə gedirmi? ABŞ isə fövqəldövlət olduğundan hətta öz hərəkət motivlərini gizlətmək qayğısına da qalmır.

Tarixə nəzər salsaq görərik ki, xristian Avropası Osmanlı imperiyasının onun ərazilərini işğal etməklə, daha iri məqsəd güddüyünü bildiyindən, ona düşmən münasibəti bəsləyirdi. Lakin Avropa dövlətləri yalnız qorxu altında yaşamaq istəmirdi, iqtisadi və geosiyasi maraqlarını da yaddan çıxarmırdı. Ona görə də XVI əsrdə osmanlılarla bir sıra ittifaqlar meydana gəlirdi. Katolik Venetsiyası ərzaq təchizatında Osmanlı imperiyasından asılı olduğundan İstanbuldan öz qonşularına və rəqib şəhər-dövlətlərə təzyiq göstərmək üçün istifadə etməkdən də çəkinmirdi. Bizans zəifləyən vaxt 1204-cü ildə Venetsiya doju Dandolo səlibçiləri aldatmaq yolu ilə, onların hərbi qüvvəsindən istifadə edib, ticarətdəki rəqibi Konstantinopolu işğal etmişdi. Bizans imperatorunun iqamətgahı paytaxtı tərk edib, 57 il ərzində Trapezundda (indiki Trabzon) yerləşmişdi. Artıq güclü Osmanlı imperiyası və onun paytaxtı ilə Bizans dövründəki kimi hərəkət etmək yaramazdı və bu, Venetsiya üçün ağır nəticələrə səbəb olardı.

XIX əsrdə də Avropa hər vəchlə Osmanlı imperiyasını zəiflətməyə çalışsa da, Rusiya ilə onun münasibətləri yenidən korlandıqda bu dəfə geosiyasi maraqlar naminə osmanlıları müdafiə etmək qərarına gəldi. 1853-1856-cı illərdə davam edən Krım müharibəsində Fransa və Böyük Britaniya Rusiyanın Osmanlı imperiyası üzərində qələbə çalması perspektivi ilə üzləşəcəklərini və bunun Avropada güc balansını pozacağını bildiklərindən, tərəddüdə yol vermədən Osmanlı imperiyasını dəstəklədilər və Krıma qoşun yeritdilər. Rusiya biabırçı məğlubiyyətə düçar oldu və çar I Nikolay bu alçaldıcı hadisəyə dözməyib, xəstələnib öldü. Bu məğlubiyyət Rusiyada quldarlıqdan az fərqlənən təhkimçiliyin, yeganə fərq onda idi ki, qullardan fərqli olaraq təhkimçi kəndli satılanda torpaq da onunla birlikdə yeni sahibin mülkiyyətinə keçməli idi, 1861-ci ildə ləğv edilməsi ilə nəticələndi, çünki rus ordusunun tərkibini, əsasən, təhkimçi kəndlilərdən olan əsgərlər təşkil edirdi və onlar əvvəllər fərqləndikləri kütləvi fədakarlığı daha göstərmirdilər. Qədim Romanın görkəmli dövlət xadimi Böyük Katon kəndlilərin yaxşı əsgər olduğunu qeyd edirdi. Lakin o, Rusiyada təhkimçiliyin və onun mənfi təzahürlərinin uzun müddət mövcud olacağını heç cür güman edə bilməzdi.

**(Ardı var)**